# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 122 (1010) 2 iyul - 3 iyul 2015-ci il


# TARİXİ ABİDƏLƏR QORUNUR

**Gəlin onunla razılaşaq ki, hər bir milləti ilk növbədə onun tarixi, iqtisadiyyatı və mədəniyyəti ilə tanıyırlar. Sirr deyil ki, Azərbaycan da zəngin tarixə və mədəniyyətə malik bir məmləkətdi. Təsadüfi deyil ki, ən qədim yaşayış məskənlərindən biri məhz Azərbaycan ərazisində - Füzuli rayonunda tapılıb. Düzdür, həmin tarixi abidə - Azıx mağarası indi erməni işğalı altındadı. Milyon il bundan əvvəl ən qədim insanların məskunlaşdığı bu mağara aldığımız məlumata görə, erməni işğalçıları tərəfindən bərbad vəziyyətə salınıb. Amma bu o demək deyil ki, ermənilər ən qədim insanların məskunlaşdığı mağaranı tarixin yaddaşından silə bilərlər.**

> **"...Bizim bütün bu tarixi keçmişimiz və milli dəyərlərimiz lazımi səviyyədə qorunur və bununla bərabər, müasir şərait, müasir infrastruktur yaradılır. İnsanların yaşaması və işləməsi üçün bütün imkanlar vardır. İş yerləri açılır, məktəblər, xəstəxanalar, idman qurğuları tikilir, yollar, su kəməri çəkilir".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

*Abidələr yaddaşlarda əbədi iz qoyub*

Füzuli rayonunda çox qədim və zəngin tarixi abidələr mövcuddur. Ürək ağrısı ilə deyə bilrik ki, onların 15-i erməni işğalı altındadır. Yazımızın əvvəlində qeyd etdiyimiz kimi, yağı düşmən həmişə çalışır ki, xalqımıza məxsus ən qədim abidələri ya yandırsın, ya da dağıtsın. Bu Azərbaycanın keçmişinə vurulan zərbə olsa da, yaddaşlardan o abidələri heç kəs silə bilməz. Belə ki, müxtəlif tarixə aid ədəbiyyatlarda və kitablarda bu abidələrin şəkilləri çap olunub və onlarla bağlı oxuculara zəngin məlumatlar verilib.

Bir faktı da qeyd edək kt, Füzulinin işğaldan azad olunmuş yaşayış məntəqələrində 3 qədim tarixi abidə bu gün qorunub saxlanılır. Onlardan biri Babi kəndində XIII əsr Şeyx Babi Yəqub türbəsidi. Digəri Əhmədalılar kəndindəki XIII əsr Arqalı türbəsi, başqa birisi isə Böyük Bəhmənli kəndində XIX əsrdə tikilmiş məscid binasıdı.

Əlbəttə, bu abidələrin qorunması və muhafizə edilməsi üçün dövlət səviyyəsində xüsusi diqqət yetirilir. Belə ki, Mədəniyyət və Turizm Nazirliyi həmin qədim tarizi abidələrinin birinin - Şeyx Babi Yəqub türbəsinin bərpası istiqamətində mühüm addımlar atıb. Bu barədə rayon mədəniyyət və turizm şöbəsinin müdiri Elman Məmmədov bizimlə söhbətində bildirir ki, xeyli vaxtdır bu abidə ətrafında bərpa və qazıntı işləri aparılır. Aparılan tədqiqatlar və axtarışlar Şeyx Babi türbəsində kompleksin olduğunu aşkarlayıb. Burda qazıntı zamanı hamam, taxıl anbarı və tunel üzə çıxarılıb. Deyilənlərə görə, bu türbənin biri də Cənubi Azərbaycan ərazisindədir. Hətta bəziləri bildirirlər ki, Araz çayının altından tunel də qazılıb. Amma bu barədə bizim əlimizdə elə bir dəqiq məlumat yoxdur. Bizim əlimizdə olan məlumat ondan ibarətdir ki, XIII əsrə məxsus olan bu qədim abidə ətrafında bərpa işləri ilə yanaşı, qazıntı və axtarışlar da aparılır. Təbii ki, bu barədə ayrı-ayrı mütəxəssislər və tədqiqatçılar daha obyektiv fikirlər söyləyə bilərlər.



Babi kəndində XIII əsrin yadigarı olan Şeyx Babi türbəsi

*Füzulidə qədim abidələr qorunur*

Əlbəttə, əgər bir məmləkətdə, bir rayonda tarixi abidələr varsa, ilk növbədə onu mühafizə etmək və qorumaq lazımdır. Ən azından ona görə ki, bu bizim tariximizdir, həyatımızdır və gələcəyə aparan yoldur. Məhz buna görə də rayonda tarixi abidələrin mühafizəsi və qorunması daim diqqət mərkəzində saxlanılır. Bizimlə söhbətində rayon mədəniyyət və turizm şöbəsinin müdiri Elman Məmmədov bir fikri də xüsusi vurğuladı ki, əgər tarixi abidələr insanlar tərəfindən qorunmasa və mühafizə edilməsə, onların gələcək nəslə çatdırılması çox çətin olar. Deməli, bizim üzərimizə çox böyük məsuliyyət düşür. Hər bir tarixi abidə dövlət səviyyəsində qeydə alınır və onun mühafizəsi həmişə önə çəkilib. Biz də ona çalışırıq ki, tarixin yaddaşı olan bu qədim mədəniyyət abidələri qorunsun və mühafizə edilsin. Bununla yanaşı erməni işğalı altında olan Qarğabazar, Aşağı Veysəlli, Qoçəhmədli, Horadiz, Füzuli şəhərində, Aşağı Aybasanlı, Qacar, Böyük Pirəhmədli, Merdinli, Saracıq və Gorazılı kəndlərindəki qədim tarixi abidələr işğal altında olsa da, onlar siyahıya alınmış və həmişə diqqət mərkəzində olmuşdu. Allah qoysa, Füzulinin digər hissəsi də işğaldan azad olunandan sonra biz həmin tarixi abidələri bərpa edəcək və onun gələcək nəslə çatdırılması üçün ciddi addımlar atacağıq.



Əhmədalılar kəndində XIII əsr

*Mədəniyyət hər bir xalqın əsas simvoludur*

Mədəniyyətlə bağlı həmişə dahi insanlar çox yaddaqalan fikirlər söyləyiblər. Mədəniyyət insanların maddi və mənəvi həyatda qazandıqları nailiyyətlərdir. Füzuli rayonunda da zamanından asılı olmayaraq, mədəniyyətin inkişafına xüsusi diqqət yetirilir. İşğaldan əvvəl Füzulidə 42 mədəniyyət evi, 27 klub, 90 kitabxana, 2 muzey, 18 tarix və mədəniyyət abidəsi, 1 park, 9 uşaq musiqi və incəsənət məktəbi, 10 avtoklub və 1 Dövlət Dram Teatrı olub. Təbii ki, onların böyük bir hissəsi erməni işğalçıları tərəfindən ələ keçirilib. Amma buna baxmayarq, işğaldan azad olunmuş kəndlərdə və yaşayış məntəqələrində həmin mədəniyyət nümunələri zaman-zaman bərpa edilib. Belə ki, işğaldan azad olunmuş yaşayış məntəqələrində 13 mədəniyyət evi, 7 klub, 33 kitabxana, 3 muzey, 2 tarixi abidə, 1 mədəniyyət abidəsi, 1 park, 12 uşaq musiqi və incəsənət məktəbi və Dram Teatrı yenidən bərpa edilərək əhalinin istifadəsinə verilib. Aydındır ki, bütün bunlar rayonda zəngin mədəniyyət nümunələrinin yaranmasında və inkişafında əsaslı dönüş yaradıb. Hörmətli Elman Məmmədov bizimlə söhbətinin sonunda bildirdi ki, hər bir mədəniyyət və tarixi abidə bizim pasportumuzdu. Yəni millətimizi özümüzə və eləcə də dünyaya tanıtdıran bu tarixi abidələri hər birimiz qorumalı və yaşatmalıyıq. Üstəlik də gənc nəsil bu abidələr barəsində zəngin məlumata malik olmalı, onları görməli və lazım gələndə başqalarına bu barədə məlumat verməyi belə bacarmalıdır.

***Faiq QİSMƏTOĞLU***


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ